# Feminist epistemologiya

written by Tinay Mushdiyeva

**I hissə**

**Feminist epistemologiya nədir?**

Feminist epistemologiyanın nə olduğu sualına cavab vermək istəyəndə yəqin etdiyimiz ilk şey feminizmin və epistemologiyanın nə olması haqqında təsəvvürlərimizi aktivləşdirmək olur. Feminizm – çox geniş mənada yanaşsaq – qadın haqları uğrunda mübarizədir. Epistemologiya isə – yenə çox geniş mənada yanaşmaq şərti ilə – fəlsəfənin bilik fenomenini araşdıran qoludur (araşdırma sahəsi bilik olan fəlsəfi dissiplindir).

Deməli, feminist epistemologiya biliyi qadın haqları uğrunda mübarizə kontekstində öyrənən fəlsəfi bir istiqamətidir. Burada iki müstəvini ayırmaq lazım gəlir:

1. Feminist epistemologiya sosioloji və etik yanaşma kimi
2. Feminist epistemologiya tipik epistemoloji problemlərin yenidən mübahisələndirilmə cəhdi kimi

*Sosioloji və etik yanaşma* olaraq feminist epistemologiya elm müəssisəsində, akademiyada, ümumiyyətlə, araşdırma prosesində qadınların diskriminasiyası hadisəsini araşdırır. Feminist epistemologiya bunu bir tərəfdən deskriptiv araşdırmalar olaraq təqdim edir, yəni yuxarıda sadalanan sahələrdə qadınların harda və necə diskriminasiyaya uğradığını təsbit edir. Digər tərəfdən isə bu diskriminasiyanın aradan qaldırılması üçün nəzəri əsaslar və metodlar işləyib hazırlayır. Bu mənada feminist epistemologiyanın deskriptiv araşdırdığı məsələlər aşağıdakılardır:

1. Qadınların araşdırma praktikalarından xaric edilməsi
2. Qadınlara epistemik avtoritet tanınmaması

3. *Feminin üslub*da olan koqnitiv praktikaların dəyərsizləşdirilməsi
4. Nəzəriyyələrdə qadınları iyerarxiyada daha aşağı pillədə, maskulin maraqlara uyğun təqdim edilməsi
5. Nəzəriyyələrdə sosial hadisələrin qadınların fəaliyyətini görünməz edərək təqdim edilməsi
6. Qadınların – ümumiyyətlə, sosial iyerarxiyada aşağıda duran gender qruplarının – bəhrələnə bilməyəcəyi bilik istehsalı

Feminist epistemologiyanın sosial və etik yanaşma kontekstində ortaya çıxan fəaliyyətlər həm də ona gətirib çıxarır ki, *tipik epistemoloji problemlər*, suallar, anlayışlar və metodlar yenidən dəyərləndirilir. Buradakı çıxış nöqtəsi bilənin (epistemoloji terminlə danışsaq, biliyin subyektinin) cinsinin epistemoloji aspektdən bir əhəmiyyətinin olub-olmaması, varsa, bu əhəmiyyətin nədən ibarət olmasıdır. Bu sual ətrafında gedən araşdırmalarda epistemologiyanın rasionallıq, obyektivlik, universallıq, doğruluq və s. kimi təməl konseptləri sual altına alınır və yenidən dəyərləndirilir.

Feminist epistemologiya 20-ci əsrin 80-ci illərindən sonra əhəmiyyət qazanmağa başlayıb. O vaxta kimi epistemologiyanın ümumi təməl sualı Kantdan gələn "Biz nə bilə bilərik?" sualı idi. Feminist epistemologiya bu sualın cavabını ilk əvvəl ordakı "biz"i tərəfsiz, cinssiz, zamansız abstrakt bilik subyektindən konkret tərəfi, cinsi, tarixi reallığı olan bilik agentinə dəyişərək müəyyən etməyə çalışır. Feminist epistemologiya bu iddiadadır ki, bu dəyişiklik təməl epistemoloji anlayışların, praktikaların, metodların da dəyişilməsinə gətirib çıxarmalıdır.

**Situativ bilik**

Feminist epistemologiyanın təməl konseptlərindən biri "situativ bilik" konseptidir. Bu konsept özlüyündə təkcə feminizm ilə məhdud olmayıb, 20-ci əsrin ikinci yarısında formalaşan anti-pozitivist elm ideyasının məhsuludur. Anti-

pozitivist elm ideyası postmodern ənənəli elm tənqididir və o, elm tarixindən tutmuş elm və biliyin sosiologiyasına qədər bir çox istiqamətləri əhatə edir. Bu kontekstdə bilik hadisəsinin yenidən dəyərləndirilməsi təşəbbüsü onu tarixi bir fenomen olaraq görməklə kəskin zaman və məkan asılılığında təqdim edir. Bilik biliyin subyektinin fiziki varlığından, yaşadığı zamandan, coğrafi ərazidən, mədəni faktorlardan, maddi vəziyyətindən, içində formalaşdığı intellektual ənənədən, əqli bacarıqlarından, psixiki sağlamlığından, yaşadığı siyasi sistemdən, yaşadığı sosiumdakı statusundan və s. asılıdır. Bütün bu təyinedici faktorları "situasiya" anlayışı altında xülasə etsək, bilik universal yox, situativdir. Bilik heç vaxt birbaşa əldə edilə bilməz, bu, bilik agentinin (bilməyə çalışan, ya da bilən şəxsin) situasiyasından asılıdır.

Sandra Hardinq və Donna Haravey situativ bilik konseptini feminist diskussiyaya gətirən əsas iki müəllifdir. Biliyin situativliyini feminist perspektivdən dəyərləndirdikdə alınan mənzərə nədən ibarətdir?

Dominant elm müəssisəsində və akademiyada qadınlarla kişilərin statusları eyni deyil. Qadınlar tarix boyu bu sahələrdə (həyatın digər sahələrində olduğu kimi) iqtidar iyerarxiyasında diskriminasiyaya uğrayan tərəf olublar və hələ də olmaqda davam edirlər. Elm və akademiyada qadınların diskriminasiyasının ən ilkin və ən bariz forması onların bu sahələrdən təcrid olunmasıdır. Dünyanın bir çox ölkələrində qadınların hələ də təhsilə çıxışları yoxdur. Elmin və akademiyanın daha çox inkişaf etdiyi ölkələrdə belə hələ də gender bərabərliyindən danışmaq olmur, qadınların bu sahədə möhkəmlənməsi kişilərə nisbətən daha çətindir. Situativ bilik konseptinin kontekstində bu o deməkdir ki, elm və bilik tarixi boyu orda qadın *situasiya*sı nəzərə alınmayıb, ya da çox cüzi nəzərə alınıb. Qadınların (və digər gender azlıqlarının) *situasiya*sı üzərinə olan refleksiyaların özləri maskulin iqtidar perspektivindən edilib (edilir). Buna görə də bütün elm və akademiya institutu, onun istehsal etdiyi bilik məhdud perspektivli və iqtidar maraqlarını özündə ehtiva edir. Bu

şərtlərdə ortaya çıxan biliyin obyektivlik iddiası etibarsızlaşdırılmalıdır. Feminist epistemologiya (ən azı postmodern ənənəli feminist epistemologiyası), ümumiyyətlə, biliyin obyektivliyini qeyri-mümkün sayır.

Feminist epistemologiyanın təməl çıxış nöqtəsi olan situativ bilik konseptinin izahını verən üç əsas yanaşma var, bunlar feminist mövqe nəzəriyyəsi, feminist empirizm və feminist postmodernizmdir. Aşağıda bu yanaşmaların əsas iddialarına nəzər salaq.

**Feminist mövqe nəzəriyyəsi**

Feminist mövqe nəzəriyyəsi yuxarıda sadaladığımız əsas istiqamətlər arasında klassik yanaşma sayılır. Onun çıxış nöqtəsi ümumi marksist mövqe nəzəriyyəsidir. Ümumi marksist mövqe nəzəriyyəsinə görə, sosial iqtidar iyerarxiyasında aşağıda duran təbəqələr daha əlverişli epistemik perspektivə malikdirlər. Bunun səbəbi ondadır ki, bu təbəqələr həm sayca cəmiyyətin əksəriyyətini təşkil edirlər, həm də cəmiyyəti təyin edən proseslərin (məsələn, əmək prosesinin) bilavasitə iştirakçılarıdırlar ki, bu da onlara proseslərə daxili və bilavasitə bir perspektivə malik olmaq imkanı verir. İctimai sistem haqqında ən bilikli olanlar da onlardır, çünki sistemi ayaqda saxlayan prosesləri onlar öz işləri sayəsində birbaşa və detallı tanıyırlar. Cəmiyyəti dəyişə biləcək əsas qüvvə də onlardır, belə ki, cəmiyyəti bilən onlardır. Daha konkret desək, cəmiyyəti dəyişmək/yaxşılaşdırmaq üçün onların biliyinin nəzərə alınması şərtdir. İçşi sinfinin özü haqqında bildiyini cəmiyyətdə dominant mövqedə olanlar bilə bilməz, çünki onların yuxarıda təsvir olunan proseslərə birbaşa və daxildən çıxışları yoxdur.

Nensi Hartsok bu kontekstdən çıxış edərək  marksist mövqe nəzəriyyəsini feminist müstəviyə proyeksiya edir. Burdan ortaya çıxan iddia budur ki, ümumi marksist mövqe nəzəriyyəsində əsas götürülən siniflər arası münasibətlər sinfi perpektivlərin epistemologiyasını müəyyən edən əsas

faktordur, eləcə də cinsiyyətə görə aparılan iş bölgüsü patriarxal sistemlərdə epistemik perspektivi müəyyən edən əsas faktordur. Patriarxal sistemlərdə qadınlar reproduktiv proseslərdə aparıcı tərəf olduğu üçün onlara proyeksiya olunan tipik, *qadın işləri* kimi təsnifləndirilən iş sahələri yaranır. Bura sosial işi, təhsil və tədris işini, baxıcılıq işini (məsələn, xəstə baxıcılığı) və s. aid etmək olar. Bu mənada qadınlar heteroseksual ənənəli patriarxal cəmiyyət quruluşunun ayaqda qalmasını təmin edən bir sahənin (reproduktiv sahənin) və onun modifikasiyalarının aparıcı qüvvəsidir. Beləliklə, qadınlar patriarxal sistemin proseslərinə birbaşa, daxildən və detallı bir epistemik perspektiv təmin edir ki, bu perspektivə ancaq onların olduğu mövqedən və rakursdan sahib olmaq olar. Cəmiyyətin feminist maraqlarda dəyişilib daha yaxşı (ədalətli) formatda qurula bilməsi üçün epistemik baxımdan əlverişli olan bu mövqedən bəhrələnmək lazımdır.

**Feminist empirizm**

Situativ bilik konseptini epistemik təməl olaraq götürən feminist epistemologiya istiqamətləri arasında feminist empirizm empirist-pozitivist ənənəyə ən yaxın olan yanaşmadır. Bununla belə, “feminist empirizm” ifadəsindəki empirizm ancaq şərti empirizmdir və o, ənənəvi empirist yanaşmadan fərqləndirilməlidir. Daha da konkretləşdirsək, feminist empirizm klassik empirist idrak nəzəriyyələrinin müəyyən iddialarının inkarı üzərində qurulub.

Klassik empirist epistemologiyada, əsas da 20-ci əsrin əvvəllərində Vyana Çevrəsi və analitik fəlsəfənin təsiri ilə təşəkkül tapan yanaşmalarda ortaq olan təməl baxış ondan ibarət idi ki, biliyin əsaslandırılması kontekstini biliyin yaranması, ortaya çıxması kontekstindən fərqləndirmək və bunları bir-birindən ayrı tutmaq lazımdır. Biliyin əsaslandırılması elmin daxili işi, biliyin yaranması səbəblərinin araşdırılması isə elmin xaricində olan bir məsələ kimi görülürdü. Bu bölgü ilə biliyin yaranması, təşəkkül tapması hadisəsi, onun şərtləri, tarixi və s.

epistemologiyanın araşdırma sahəsindən kənarda qalırdı.

Feminist epistemologiyanın da təməl konsepti olan situativ bilik isə bu bölgünü bəri başdan inkar edir. Bununla belə feminist empirizm həm yuxarıda təsvir olunan *biliyin əsaslandırması və biliyin yaranması* bölgüsünə olan tənqidləri nəzərə almağa, həm də biliyin obyektivlik şərtini əldən verməməyə çalışır. Bu kombinasiya cəhdindən ortaya çıxan nəticə *nəzəriyyələrin empirik qeyri-kafi determinasiyası* ideyası və *müşahidənin nəzəriyyə yüklü* olması ideyasıdır. *Nəzəriyyələrin empirik cəhətdən qeyri-kafi determinasiyası* o deməkdir ki, bizim empirik müşahidə yolu ilə yığdığımız məlumatlar nəzəriyyələri birmənalı şəkildə müəyyən edə bilməz. Belə ki, eyni müşahidə materialından müxtəlif, hətta bir-biri ilə ziddiyyət təşkil edən nəzəri yanaşmalar ortaya çıxa bilər.

*Müşahidənin nəzəriyyə yüklü olması* isə o deməkdir ki, bizim empirik müşahidə qabiliyyətimizin özü müəyyən nəzəri kontekstlərdə formalaşır. Biz empirik müşahidə edərkən belə dünyaya müəyyən *nəzəri eynək*dən baxırıq. Ona görə də empirik müşahidə bizə şərtsiz, xalis faktlara çıxış təminatı verə bilməz. Ümumiyyətlə, şərtsiz, xalis faktlar mövcud ola bilməz. Bu kompromisin nəticəsi kimi *kontekstual empirizmi* və *naturalist epistemologiya*nı misal çəkmək olar. Hər iki yanaşma empirik əsaslandırmanı elmi idrakın təməli olaraq görür. Eyni zamanda da hər iki yanaşma onda razılaşır ki, elm sosial və bununla da kollektiv bir müəssisədir və ayrı-ayrı fərdlərin işi ilə məhdudlaşa bilməz. Elmi araşdırmalar sosial fəaliyyətlərdir və təməl xarakterlərinə görə digər sosial fəaliyyətlərdən fərqləndirilməməlidir. Bununla da feminist empirizm  klassik empirizmin elmdən kənar elan etdiyi biliyin sosiologiyasını epistemoloji maraq dairəsində görür və onun bu kontekstdə araşdırılmasını zəruri sayır.

**Feminist postmodernizm**

Feminist postmodernizmi izah etmək üçün yenə də müvafiq ümumi

konteksti təqdim etmək lazım gəlir. Epistemoloji cəhətdən postmodernizmin başa düşülməsi üçün açar anlayışlar *diskursiv qurğu*, ya da *sosial qurğu* ifadələrində verilib. Postmodernist epistemologiya universallıq, zərurət, obyektivlik, birmənalılıq, mahiyyət və s. kimi təməl epistemik konseptlərin inkarından çıxış edərək bunların əksi olan lokallıq, qeyri-stabillik, tərəflilik, qeyri-əminlik, çoxmənalılıq və s. anlayışların epistemoloji əhəmiyyətini vurğulayır. Bunun nəticəsi olaraq *situativ bilik* konsepti daha da radikallaşdırılaraq biliyin qeyri-mümkünlüyü iddiasına kimi gedib çıxır. Belə ki, postmodernist epistemoloji baxış subyekt anlayışını, bununla da biliyin subyekti anlayışını tamam inkar edir. Bizim dünyanı necə düşünməyimiz bir sosial qurğudur, yəni bir növ uydurmadır. Bizim dünya haqqında düşündüklərimizin – bura həmçinin bilik daxildir – mənası referensial deyil, refleksivdir. Bu o deməkdir ki, bizim dilimizin, bilik sistemimizin doğruluğunu təmin edəcək bir *xarici*, bizdən asılı olmayan reallıq, istinad yeri yoxdur. Bizim yaratdığımız yeni mənalar ancaq içində olduğumuz başqa mənalara münasibətdən yaranır.

Bu kontekstdə biliyin subyekti yox olur. Belə ki, postmodernist yanaşmaya görə, *mən* (*subyekt*), bunun müqabilində həm də subyekt işarələrdən yaranan bir konseptdir. İşarələr isə tamamilə refleksivdir, yəni başqa işarələrə münasibətdən yaranır və onlarla mənalanır. İşarələrin referensiallığı inkar edildiyinə görə, subyektin də referensiallığı inkar edilir. Subyekt refleksivdir, yəni sosial qurğudur, reallıqda bir təməli və istinadı yoxdur. Daha da konkretləşdirsək, reallığın özü də sosial qurğudur, yəni *real* deyil, quramadır.

Bu, bir tərəfdən o deməkdir ki, heç bir nəzəriyyə, bilik, elm reallığı tam və doğru olaraq təqdim etmək iqtidarında deyil. Belə ki, həm reallığın, həm də subyektin sosial qurğu olması iddiası saysız epistemik perspektivlərin qəbul edilməsi zərurətini yaradır. Bütün bu perspektivlər (yanaşmalar, nəzəriyyələr) eyni epistemik legitimliyə malik olacaq, belə ki, onları doğru, ya da yanlış olaraq verifikasiya edəcək bir

kriteriya yoxdur.

Postmodernist epistemologiyanın radikal olaraq sual altına qoyduğu məqam aydınlanma ənənəsindən bəri hakim olan elmin (geniş mənada idrakın) və inkişafın bir-birinə bağlılığı fikridir. Modernizmin (aydınlanma ənənəsinin) təqdim etdiyi *idrak və həqiqət* cütlüyünün yerinə postmodernizm *bilik və iqtidar* cütlüyünü qoyur. Başqa sözlə, postmodernizmə görə, elmi idrak iqtidarla əlaqəlidir, həqiqət ilə deyil. Bütün bilik iddiaları, o cümlədən elm iqtidar aktıdır.

Bu yuxarıdakı kontekstdə feminist postmodernizmin əsas tənqid hədəfi ümumi bir *qadın* kateqoriyasıdır. Gender sosial qurğulardan biridir və özündə müəyyən bir sosial perspektiv, o cümlədən də iqtidar iddiası ehtiva edir. Feminist postmodernizmin bu istiqamətdə əsas tənqidi çıxış nöqtəsi ümumi bir *qadın* konsepti təşkil edən yanaşmalardır (məsələn, feminist mövqe nəzəriyyəsi). Bu yanaşmalarda təqdim olunan “qadın” konsepti əslində ağ, orta sinif heteroseksual qadınları təqdim edir ki, bu perspektiv də ümumi olaraq bütün qadınları təmsil edə bilməz. Burda problemli olan məqam odur ki, belə bir ümumi *qadın* konsepti özü sosial qurğu olduğu halda, bütün qadınların nəzəri perspektivi kimi təqdim ediləndə normaya çevrilmiş olur. Bu da öz növbəsində diskriminativdir, belə ki, ağ, orta sinif və heteroseksual olmayan digər qadınların perspektivini gözardı edir və onlara qarşı irqi, sinfi və gender əsaslı ayrı-seçkilik ilə nəticələnir.

**Nəticə**

Bu yazının birinci hissəsində feminist epistemologiyanın ümumi ideyasını, əsas anlayışlarını, ümumi epistemologiya kontekstində mübahisələndirdiyi problemləri xülasə etdik. Bu mənada bu yazı deskriptiv xarakter daşıyır və standart akademik ədəbiyyatda təqdim olunan məlumatları qısa və ümumiləşdirilmiş şəkildə təqdim edir. Daha geniş oxu üçün ədəbiyyat siyahısı əlavə olunur. Yazının ikinci hissəsində

feminist epistemologiya çərçivəsində yenidən dəyərləndirilən epistemoloji problemlərindən bəzilərinin daha detallı analizini və tənqidini təqdim edəcəyik.

**Ədəbiyyat siyahısı:**

Anderson, Elizabeth. "Feminist Epistemology and Philosophy of Science." In *The Stanford Encyclopedia of Philosophy*, edited by Edward N. Zalta, Spring 2020. Metaphysics Research Lab, Stanford University, 2020. https://plato.stanford.edu/archives/spr2020/entries/feminism-epistemology/.

Butler, Judith, 1990, *Gender Trouble*, New York: Routledge.

Butler, Judith, 1993, *Bodies that Matter*, New York: Routledge.

Code, Lorraine 1981: *Is the Sex of the Knower Epistemologically Significant?* In: Metaphilosophy 12, S. 267–276

Code, Lorraine 1992: *Feminist Epistemology*. In: Dancy, Jonathan/Ernest Sosa (Hrsg.): A Companion to Epistemology. Oxford, UK/Malden, Mass: Blackwell, S. 138–142

Duran, Jane, 1991, *Toward a Feminist Epistemology*, Savage, Md.: Rowman & Littlefield.

Fricker, Miranda, 2007, *Epistemic Injustice*, Oxford: Oxford University Press.

Haraway, Donna, 1991, *Simians, Cyborgs, and Women: The Reinvention of Nature.* London, New York: Routledge.

Haraway, Donna, 1995, *Die Neuerfindung der Natur. Primaten, Cyborgs und Frauen.* Hrsg. von Carmen Hammer/Immanuel Stieß. Frankfurt/M., New York: Campus

Harding, Sandra, 1990, *Feministische Wissenschaftstheorie. Zum*

*Verhältnis von Wissenschaft und sozialem Geschlecht*. Hamburg: Argument Verlag

Harding, Sandra, 2006, *Science and Social Inequality: Feminist and Postcolonial Issues.* Urbana/Chicago: University of Illinois Press

Hartsock, Nancy, 1987, *The Feminist Standpoint: Developing the Ground for a Specifically Feminist Historical Materialism* In Harding 1987a.

Longino, Helen, 1990, *Science as Social Knowledge.* Princeton, NJ: Princeton University Press

Mona, Singer, 2008, *Feministische Wissenschaftskritik und Epistemologie:* Voraussetzungen, Positionen, Perspektiven / in: *Handbuch Frauen- und Geschlechterforschung.*Theorie, Methoden, Empirie / Editors: Ruth Becker, Beate Kortendiek

Tanesini, Alessandra, 1999, *An Introduction to Feminist Epistemologies.* Oxford/Malden: Oxford University Press